# Ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi böyük potensiala malikdir



***Rusiya yüz illərdən bəri Azərbaycanın qonşusu olmaqla yanaşı, dünyanın hegemon dövlətlərindən biridir. Bu qonşuluq zaman-zaman fərqli xarakterlər alsa da, SSRİ-nin dağılmasından sonra müstəqillik qazanan Rusiya Federasiyası əvvəlki dövrlərə nisbətən tamamilə yeni xarici siyasət kursu və konstruktiv istiqamət seçdi. Beləliklə, ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqillik qazanan Azərbaycan digər postsovet ölkələri kimi, Rusiya ilə də qarşılıqlı əlaqələr yaratdı və münasibətləri bərpa etdi. Əlbəttə, gənc respublikamız ulu öndərin hakimiyyətə qayıdışı ilə yeni inkişaf mərhələsinə qədəm qoydu. Yeni xarici siyasət kursu tərtib edildi. Bu proqramın da əsas müddəalarından biri, təbii ki, Rusiya ilə əlaqələrin gücləndirilməsi idi... Bu fikirləri bizimlə söhbətində AMEA Azad Həmkarlar İttifaqının sədri, hüquq elmləri doktoru, professor Habil Qurbanov bildirdi.***

***Professor H.Qurbanov dedi:***

– Ölkələrimiz və xalqlarımız arasında çox möhkəm tarixi bağlar var. Qeyd etdiyim kimi, müxtəlif dövrlərdə, fərqli idarəetmə prinsiplərinə görə yaranan problemlər, çaxnaşmalar SSRİ-nin süqutu ilə bitdi və yenilənmiş Rusiya dövlətinin yaranması ilə yeni bir mərhələyə – iqtisadi və siyasi əlaqələrin gücləndiyi müttəfiqlik mərhələsinə qədəm qoyduq.

Ulu öndər Heydər Əliyevin dövründə daha da güclənən Rusiya–Azərbaycan münasibətləri 2000-ci ildə Vladimir Putinin Rusiya Prezidenti seçilməsi ilə bir qədər də möhkəmləndi. Belə ki, V.Putinin hakimiyyətə gəlişindən sonra qonşu ölkənin Azərbaycana qarşı münasibətlərində yeni dövr başlandı. Bu dəyişikliklərdən biri də ondan ibarətdir ki, Rusiya bizimlə münasibətlərində daha praqmatik öhdəlikləri yerinə yetirməyə başladı. Azərbaycan – Rusiya münasibətləri sadəcə MDB müstəvisində inteqrasiya çərçivəsindən çıxdı, hər iki ölkənin milli maraqları gözlənilməklə siyasi əlaqələr möhkəmləndirildi.

Əlbəttə, burada vurğulanmalı əsas məqam təhlükəsizlik və iqtisadi inkişaf istiqamətləridir. Beləliklə, iki ölkə arasında sıx dostluq və əməkdaşlıq üçün önəmli siyasi baza formalaşdı. Dövlətimizin başçısının qeyd etdiyi kimi, iki ölkə arasında bu günə qədər 245 hökumətlərarası sənəd imzalanıb. Qeyd edək ki, imzalanan bu sənədlər siyasi, hərbi-texniki, təhlükəsizlik, iqtisadi, ticarət, investisiya, maliyyə, yanacaq-energetika, elm, təhsil, mədəni və s. sahələri əhatə edir.

Yeri gəlmişkən, Prezident İlham Əliyev fevralın 22-də Rusiya Vladimir Putinin dəvəti ilə Moskvaya rəsmi səfər edib. Səfər zamanı ikitərəli münasibətlərin gücləndirilməsi mövzusunda görüş keçirən prezidentlər sonda iki ölkə arasındakı münasibətlərini yeni bir mərhələyə daşıyan “Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında Bəyannamə” imzalayıblar.

Dövlət başçımız sənədin imzalanmasından sonrakı çıxışı zamanı bildirdi ki, Rusiya Prezidenti ilə görüşlərin intensivliyi iki ölkə arasında olan münasibətlərin möhkəmliyindən və davamlı surətdə inkişaf etdirilməsindən xəbər verir. Cənab Prezident bildirdi ki, müharibədən sonra yaranan yeni reallıqlar Rusiya – Azərbaycan münasibətlərinə də xeyli təsir edəcək. Ümumiyyətlə, imzalanan yeni bəyannamə iki ölkə arasındakı münasibətlərin daha da gücləndirilməsinə şərait yaradacaq. Ticari-iqtisadi sahədə də yeni imkanlar yaranır. V.Putin də əmtəə dövriyyəsinin əhəmiyyətli dərəcədə artdığını qeyd edərək bildirdi ki, pandemiyaya baxmayaraq, iki ölkə arasında olan əlaqələr davamlı şəkildə sıxlaşdırılır və bu, yeni potensialların yaranmasına gətirib çıxarır.

***Təqdim etdi:***
***İmran ƏLİYEV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 25 fevral.- S.6.